Azerbaijanian Journal of Economics and Social Studies

Number 2, Volume 1, 2015

# AZƏRBAYCANIN AVROPA İTTİFAQINA İXRACININ MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

**Əliyev Elnur Vaqif oğlu**
İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun doktorantı
elnurvaqifoglu@gmail.com

**Xülasə**

Tədqiqat işinin əsas məqsədi, Azərbaycanın Avropa İttifaqına ixracı sahəsindəki vəziyyətin öyrənilməsi və onun şaxələndirilməsi imkanlarının müəyyən edilməsidir. Aparılmış tədqiqatlar nəticəsində müəyyən olur ki, Azərbaycanın Avropa İttifaqına ixracı müstəqilliyin ilk illəri ilə müqayisədə son illər sürətlə artmışdır. Belə ki, 1995-ci ildə Avropa İttifaqına ixracın həcmi 0,1 milyard ABŞ dolları olduğu halda bu göstərici 2013-cü ildə 11,6 milyard ABŞ dollarına çatmışdır. Eyni zamanda hələ də Azərbaycanın qeyri-neft sektoru üzrə ixracında MDB ölkələri əsas paya sahibdirlər (2013-cü ildə MDB-nin payı 41,4%, o cümlədən Rusiya 31,6%).

Tədqiqatın nəticələri Azərbaycanın Avropa Ölkələrinə ixracının şaxələndirilməsi ilə bağlı elmi tədqiqat aparan mütəxəssislər, o cümlədən elmi-tədqiqat müəssisələrində çalışan elmi işçilər, tələbə və magistrlər tərəfindən, həmçinin Azərbaycanın Aİ-yə ixracının şaxələndirilməsinə məsul olan müvafiq qurumlar tərəfindən istifadə edilə bilər.

**Açar sözlər:** *Avropa İttifaqı, ixracın şaxələndirilməsi, TRACECA,* TANAP, TAP və *Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəlrəi və s.*

## 1. Giriş

İqtisadiyyatın bütün aparıcı sahələrində köklü dəyişiklikləri təmin etmiş, böyük uğurlara nail olmuş Azərbaycanda iqtisadiyyatın digər sahələri ilə paralel ixracın şaxələndirilməsi və onun həcminin artırılması istiqamətində də davamlı və məqsədyönlü iş aparılır.

Şübhəsiz ki, son illər Azərbaycanda qəbul edilmiş normativ-hüquqi aktlar, konsepsiya və tədbirlər planlarının əsas məqsədlərindən birini də Azərbaycanda ixracın şaxələnməsi və qeyri-neft ixracının artımına, o cümlədən ilkin olaraq onun həcminin qeyri-neft sektoru üzrə idxalı qarşılaya biləcək səviyyəyə çatdırılması təşkil edir. Heç təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 29.12.2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş **"Azərbaycan 2020: Gələcəyə Baxış"** İnkişaf Konsepsiyasında 2020-ci ilədək Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının adambaşına 1000 ABŞ dollarına çatdırılması hədəflənmişdir [12].

Digərə tərəfdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08.02.2011-ci il tarixli, 40s nömrəli Sərəncamı ilə təsdiq edilmiş **"2011-2013-cü illər üçün qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair Tədbirlər Planı"**nda ölkədə bu sektorda mövcud olan qanunvericilik bazasının təkmilləşdirilməsi, ixrac siyasətinin koordinasiyasının gücləndirilməsi, ixrac mallarının istehsalının stimullaşdırılması, ixracın infrastruktur təminatının

yaxşılaşdırılması, keyfiyyətə nəzarət sisteminin təkmilləşdirilməsi, ixracın təşviqi və maarifləndirmə kimi vacib əməli tədbirlər öz əksini tapmışdır [13].

Təbii ki, bütün bu hədəflərə çatmaq, Azərbaycanda qeyri-neft ixracının şaxələndirilməsi və onun həcminin artırılmasına nail olmaq, ixrac şaxələndirilməsinə xidmət edən infrastrukturunun möhkəmləndirilməsi və s. üçün ixrac şaxələndirilməsi probleminə elmi yanaşma, bu sahədə qabaqcıl ölkələr tərəfindən tətbiq edilən mexanizmlərin hərtərəfli tədqiqini, xüsusilə də Azərbaycan ixracının bazarlar üzrə təhlili xüsusi önəm daşıyır.

## 2. İxracın şaxələndirilməsi probleminin nəzəri-metodoloji əsasları

"İqtisadi şaxələnmə geniş çeşiddə məhsulların iqtisadiyyatda istehsal edilməsi prosesi kimi nəzərdən keçirilir. Bu anlayış, həmçinin ixrac bazarlarının şaxələnməsi və daxili iqtisadi fəaliyyətlərdən ayrı gəlir mənbələrinin şaxələnməsini da əhatə edir". İxracın şaxələnməsi isə mövcud ixrac səbətindəki ayrı-ayrı malların xüsusi çəkisini dəyişməyə, ixrac səbətinə yeni əmtəələr təklif etməyə və yeni coğrafi bazarlara çıxışı nəzərdə tutan siyasətlərin məcmusudur. İqtisadi şaxələnmə siyasətinin əsas elementləri bunlardır: kapital (insan kapitalı, fiziki kapital və təbii sərvətlər), resurslardan daha effektiv istifadəyə imkan verən rəqabətli bazarlar, infrastruktur təminatı, davamlı institusional və struktur islahatları, xarici sərmayənin hərəkətində və ticarətdə sərbəstlik, makroiqtisadi stabillik [3 və 6].

OECD-in 98 ölkə üzrə (1966-2000-ci illəri əhatə etməklə) apardığı xarici ticarət statistikasının təhlili göstərdi ki, şaxələnməyə nail olmaq aşağı gəlirli ölkələr üçün daha çətin vəzifədir. Eyni zamanda, ixracın şaxələnməsi hələ bunun davamlı yüksək gəlir (bazar payından asılı olaraq) və yüksək iqtisadi artım vəd edəcəyi anlamına gəlmir. Xüsusən azgəlirli ölkələrdə insan kapitalı müqayisəli üstünlüyün əsas elementi olmadığından onlar yalnız az texnologiya tutumlu və az vərdiş tələb edən sənaye sahələri (məsələn, kənd təsərrüfatı mallarının qablaşdırılması) hesabına şaxələnməyə nail olurlar. İxracın və ümumiyyətlə iqtisadiyyatın şaxələnməsi ölkənin idxalını da stimullaşdırdığından bu, bütövlükdə bütün ölkələr üçün faydalıdır [6].

Aparılan təhlil göstərir ki, qeyri-neft sektorunda məhz hansı sahələrin neft-qaz sektoruna alternativ kimi inkişaf etdirilməsindən danışarkən 4 əsas seçim meyarı nəzərdən keçirilməlidir [6]:

**A.** Seçilən sahənin digər sektorlarla əlaqəsi ("*inter-industry linkages or locomotive effect*"). İqtisadi şaxələnmədə prioritet seçilən sahə digər sektorların da inkişafı üçün lokomotiv rolunu oynamalıdır, onların da məhsulları üçün yeni tələb formalaşdırmalı və digər sektorların hazır məhsullarını istehlak etməlidir. Dünya üzrə o sektorlar yüksək "lokomotiv effekti"nə malik sahələr hesab edilir ki, onlar istehsal prosesində hər bir son məhsulun dəyərinin 50%-i qədər digər sektorların hazır məhsullarını istehlak edir.

**B.** Seçilən sahənin əməktutumlu olması ("*labor-intensity*"). Burada söhbət birbaşa olaraq seçilən sektorda yaranacaq iş yerlərinin sayından, digər sektorlara pozitiv təsir nəticəsində onlarda yaranacaq iş yerlərindən və nəhayət, yüksək əməkhaqqının formalaşdıracağı "gəlir effekti" ilə yaranan lokal xidmətlərdən gedir.

**C.** Seçilən sahənin böyük ixrac potensialı. Ölkənin digər bütün şərtlərlə yanaşı, müqayisəli üstünlüyə malik olduğu sahələr üzrə (*"revealed comparative advantage"*) yüksək ixrac potensialına sahib ola biləcəyi güman edilir. Bu zaman konkret məhsulun ölkənin ümumi ixracındakı payının qlobal ixracdakı payına nisbəti də bir indikator ("*Balassa Index*") kimi nəzərə alınmalıdır.

**D.** Seçilən sahənin idxalı əvəzetmə ("*import substitution*") potensialı. İqtisadi inkişaf strategiyalarında bir qayda olaraq idxalı əvəzetmə yanaşması neqativ nəticələr də doğurur. Belə

ki, bu yanaşma proteksionizm və subsidiyalaşma vasitəsilə rəqabət mühitinə mənfi təsir göstərir. Ancaq hansı sahələrdə ki böyük daxili tələb var və ənənəvi olaraq yerli müəssisələr rəqabətli olublar (Azərbaycanın neft-kimya kompleksi, kondisioner istehsalı, meyvə-tərəvəz sektoru kimi), idxalı əvəzetmə tətbiq edilə bilər (daha çox köhnə müəssisələrin modernləşməsi yolu ilə).

İqtisadi şaxələnmə üçün sektorlar seçilərkən yuxarıda sadalananlarla yanaşı texnoloji transfer, regional qeyri-bərabərsizliklər, ərzaq təhlükəsizliyi kimi faktorlar da nəzərə alınmalıdır. Ümumiyyətlə isə iqtisadi ədəbiyyatlarda ən çox istifadə edilən ixrac şaxələnməsi indikatorları aşağıdakılardır [3 və 6]:

- İxrac edilən 10 əsas məhsulun ümumi ixracatda payı;
- İxrac konsentrasiyası üzrə Herfindal indeksi;
- Xammal (resurs) mənşəli ixracın ümumi ixracatda payı.

Fikrimizcə, Azərbaycanda ixracın şaxələndirilməsi üçün artıq əlverişli mühit formalaşmışdır. Belə ki, Azərbaycanın müxtəlif strateji inkişaf sənədlərində qeyri neft sektoru üzrə ixracın artırılması və şaxələndirilməsi ilə bağlı hədəflər öz əksini tapmış, müvafiq qanunvericilik bazası formalaşdırılmış, eyni zamanda Ölkə Rəhbərliyi müvafiq strukturlar qarşısında bu hədəflərə çatmaq məqsədilə çox ciddi tapşırıqlar qoymuşdur.

Son illərdə Azərbaycan Prezidenti İlham Əliyevin rəsmi çıxışlarına diqqətlə analiz etdikdə məlum olur ki, qeyri-neft sektoru üzrə ixracın şaxələnməsi iqtisadi inkişafımızın prioritetlərindəndir və bu şaxələnmə əsasən neft gəlirlərinin dövlət investisiya proqlamları vasitəsilə qeyri-neft sektorunun inkişafına yönəldilməsi ilə əlaqələndirilir [10, 12, 13]:

- *"Neft sənayesindən əldə edilən gəlirlərin ağılla və böyük səmərə ilə qeyri-neft sektoruna yatırılması nəticəsində Azərbaycanda kənd təsərrüfatı, tikinti, emal sektoru sürətlə inkişaf edir".*

Digər tərəfdən iqtisadiyyatın şaxələnməsina nail olmaq üçün dövlət investisiya proqramları ilə yanaşı özəl investisiyaların da artırılması mühüm hesab olunur və hökumətin özəl sektora kömək etməyə hazır olduğu qeyd olunur:

- *"Biz bundan sonra da dövlət xətti ilə dövlət investisiya proqramlarını icra edəcəyik. Hər il dövlət büdcəsindən böyük məbləğdə vəsait ayrılır. Amma mən çox istərdim ki, özəl sektor daha da böyük həcmdə investisiyalar qoysun."*

Prezident öz çıxışlarında həmçinin büdcə gəlirlərinin artımına qeyri-neft sektoru hesabına nail olunmasının zəruri hesab edir və neft gəlirlərinin əsasən əmanət kimi saxlanılmasını vurğulayır:

- *"Artıq mən hökumət qarşısında, Maliyyə Nazirliyi qarşısında vəzifə qoymuşam ki, gələn ilin büdcəsinin əsas parametrləri müəyyən edilsin. Gələn ilin büdcəsi də kəskin şəkildə artmalıdır. Buna imkan var və bu artım ilk növbədə qeyri-neft sektorunun hesabına olmalıdır. Biz Neft Fondunda yığılan vəsaiti çox qənaətlə xərcləməliyik. Bunu xərcləmək o qədər də çətin deyildir. Ancaq biz bunu bir əmanət kimi saxlamalıyıq. Ən önəmli, ən vacib məsələlərə yönəltməliyik".*

Onu da qeyd edək ki, ixracın şaxələndirilməsi sahəsində aparılan fəaliyyət (qanunvericiliyin təkmilləşdirilməsi, idxal-ixrac prosedurlarının sadələşdirilməsi və s.) beynəlxalq təşkilatlar və inkişaf agentlikləri tərəfindən mütəmadi olaraq qiymətləndirilir. Əldə edilmiş uğurlarla yanaşı bəzi çatışmayan cəhətlər də bu təşkilatlar tərəfindən hazırlanan hesabatlarda öz əksini tapır.

Belə ki, **"Doing Business 2014"** hesabatında ölkəmiz 189 ölkə arasında 70-ci olmuşdur. Lakin bu hesabatın alt parametrlərinin təhlili göstərir ki, iqtisadiyyatın digər sahələrində müəyyən uğurlar əldə edilsə də, xarici ticarət sahəsində müəyyən problemlər həklə də qalmaqdadır. Başqa sözlə, sözügedən hesabatın "beynəlxalq ticarət" göstəricisi üzrə Azərbaycanın tutduğu yer qənaətbəxş olmamışdır [18].

***Cədvəl 1.***

**"Doingbusiness 2014" hesabatı**

| | Azərbaycan | Ermənistan | Gürcüstan |
|---|---|---|---|
| Biznesə başlama | 10 | 6 | 8 |
| Tikintiyə icazə | 180 | 79 | 2 |
| Elektrikin alınması | 181 | 109 | 54 |
| Mülkiyyətin qeydiyyatı | 13 | 5 | 1 |
| Kreditə çıxış | 55 | 42 | 3 |
| İnvestorların qorunması | 22 | 22 | 16 |
| Vergilərin ödənilməsi | 77 | 103 | 29 |
| **Beynəlxalq ticarət** | **168** | **117** | **43** |
| Müqavilələrin icrasının təmini | 28 | 112 | 33 |
| Müflisləşmə haqqında qərar | 86 | 76 | 88 |

***Mənbə:*** *Cədvəl "Doingbussiness 2014" (http://doingbusiness.org/) hesabatına əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Təhlillər göstərir ki, Azərbaycan **"beynəlxalq ticarət"** göstərici üzrə region ölkələrdən Ermənistandan və Gürcüstandan geridə qalmışdır. Başqa sözlə, Azərbaycan bu göstərici üzrə 189 ölkə arasında **168**-ci yerdə qərarlaşmışdır. Məlumat üçün bildirək ki, Gürcüstan "beynəlxalq ticarət" göstəricisinin hesablanma metodologiyasına əsasən 43-cü, Ermənistan isə 117-ci yeri tutmuşdurlar [18].

Bəs Azərbaycanın bu hesabatda yaxşı nəticə göstərə bilməməsinin səbəbi nədir? Bu suala cavab tapmaq məqsədilə hesabatın adı çəkilən bölməsinin hazırlanma metodologiyası tədqiq edilmiş və məlum olmuşdur ki, ixrac və idxal zamanı tələb edilən sənədlərin sayının çoxluğu, bu proseslərə itirilən vaxtın uzunluğu və nəhayət çəkilən xərcin çoxluğu ölkənin mövqeyinə mənfi təsir edən amillərdəndir.

***Cədvəl 2.***

**"Doingbusiness 2014" hesabatının "beynəlxalq ticarət" alt bölməsinin əsas göztəriciləri**

| | Azərbaycan | Ermənistan | Gürcüstan |
|---|---|---|---|
| | *İxrac* | | |
| Tələb olunan sənədlərin sayı | 9 | 5 | 4 |
| Tələb olunan vaxt, gün | 28 | 16 | 9 |
| Tələb olunan vəsait (xərc), USD | 3540 | 1885 | 1355 |
| | *İdxal* | | |
| Tələb olunan sənədlərin sayı | 11 | 8 | 4 |
| Tələb olunan vaxt, gün | 25 | 18 | 10 |
| Tələb olunan vəsait (xərc), USD | 3560 | 2175 | 1595 |

***Mənbə:*** *Cədvəl "Doingbussiness 2014" (http://doingbusiness.org/) hesabatına əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Belə ki, Azərbaycanda 20 fut çəkiyə malik bir konteynerin ixracı zamanı, **9 sənəd, 28 gün vaxt və 3540 ABŞ dolları** tələb olunur. Qeyd edək ki, bu göstərici üzrə Azərbaycan Ermənistan və Gürcüstanla müqayisədə kifayət qədər geri qalır. Belə ki, Gürcüstanda eyni konteynerin ixracı zamanı **4 sənəd, 9 gün vaxt və 1355 ABŞ dolları** vəsait tələb olunur [18].

Dünya ölkələrinin xarici ticarət siyasətinin liberallığı və azadlığını, eləcə də onun ixracın şaxələnməsinə və xarici ticarət həcmini artmasına, həmçinin xarici investisiyanın ölkəyə cəlb edilməsinə təsirinin qiymətləndirilməsini ehtiva edən reytinq hesabatlarından biri də Heritage Fondu tərəfindən hər il hazırlanan **"İqtisadi Azadlıq İndeksi-2014"** sənədidir. Bu hesabatda ilk dəfə olaraq Azərbaycan "orta azad" olan ölkələr qrupuna daxil olmuş və 178 ölkə arasında 81-ci, "xarici ticarət azadlığı" göstərici üzrə isə 86-cı yeri tutmuşdur [19].

*Cədvəl 3.*

**"İqtisadi azadlıq indeksi 2014" hesabatının əsas göztəriciləri**

| | Azərbaycan | Ermənistan | Gürcüstan |
|---|---|---|---|
| Ümumi | 81 | 41 | 22 |
| o cümlədən | | | |
| Mülkiyyət hüquqları | 158 | 134 | 91 |
| Korrupsiyadan azadlıq | 147 | 124 | 62 |
| Fizikal azadlıq | 37 | 46 | 39 |
| Hökumət xərcləmələri | 100 | 49 | 89 |
| Biznes azadlığı | 60 | 27 | 18 |
| Əmək azadlığı | 40 | 35 | 6 |
| Monetar azadlıq | 54 | 73 | 60 |
| **Ticarət azadlığı** | **86** | **46** | **8** |
| İnvestisiya azadlığı | 84 | 54 | 23 |
| Maliyyə azadlığı | 87 | 36 | 42 |

***Mənbə:*** *Cədvəl "İqtisadi Azadlıq İndeksi - 2014" (www.heritage.org/index/ranking) hesabatına əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Yuxarıdakı cədvəldən də göründüyü kimi "iqtisadi azadlıq indeksi - 2014" hesabatında da region ölkələri arasında ən azad ölkə Gürcüstan olmuşdur. Digər təəssüf doğuran məqam ondan ibarətdir ki, Ermənistanın reytinqi də Azərbaycanın müvafiq göstəricisindən yüksək olmuşdur. Belə ki, **Azərbaycan bu hesabatda 81-ci yerdə olduğu** halda, **Ermənistan 41-ci, Gürcüstan 22-ci** yeri tutmuşdur [19].

Hesabatın "ticarət azadlığı" alt göstəricisi üzrə də analoji vəziyyət mövcud olmuş, Gürcüstan dünyanın ən azad ticarətə malik 8-ci, Ermənistan 46-cı ölkəsi olduğu halda Azərbaycan 86-cı yerlə kifayətlənmişdir [19].

Yuxarıda aparılan təhlilləri ümumiləşdirərək belə bir nəticəyə gələ bilərik ki, ixracın şaxələndirilməsi məqsədilə aparılmış işlər nə qədər çox olsa da, beynəlxalq hesabatların və siyasət sənədlərinin tədqiqi göstərir ki, bu sahədə müəyyən problemlər hələ də öz həllini gözləyir. Fikrimizcə, Azərbaycanda ixracın həcminin artırılması və onun şaxələnməsinə nail olmaq üçün mütləq şəkildə xarici ticarət siyasəti liberallaşdırılmalı, ixrac və idxal əməliyyatlarına sərf edilən vaxt və vəsait itkisi həcmi və sənədlərin sayı azaldılmalıdır. Digər tərəfdən ölkədə ixrac yönümlü istehsalın artırılması məqsədilə xarici investorlara münasibətdə bir sıra vergi, kommunal, rüsum və s. güzəştlər tətbiq edilməlidir. Bu baxımdan son illər formalaşdırılması davam etdirilən azad iqtisadi zonaların yaradılmasının sürətləndirilməsi öz aktuallığını saxlamaqdadır.

## 3. Azərbaycan ixracında son illər baş verən tendensiyaların təhlili

Azərbaycan Respublikasının Aİ-yə ixracının müasir vəziyyətinin təhlilinə keçmədən öncə son illərdə ixracında baş verən bir sıra dəyişikliklərə nəzər yetirməyimiz xüsusilə əhəmiyyətlidir. 1995-2013-cü illər ərzində Azərbaycan ixracının təhlili göstərir ki, bu dövr ərzində onun sürətli monostrukturlaşması prosesi davam etmişdir. Belə ki, 1995-ci ildən ümumi ixracda qeyri-neft sektorunun payı 45,6% olduğu halda, 2013-cü ildə 7,4%-ədək enmiş, paralel olaraq neft sektorunun 2000-ci illərdən başlayaraq ümumi ixracda payı sürətli şəkildə artmış və 2013-cü ildə 92,6%-ə yüksəlmişdir [14].




**Şəkil 1. İxracda neft və qeyri neft sektorlarının payı, %-lə**

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (www.stat.gov.az) məlumatları əsasında müəllif hesablamalrı.*

Lakin bu proses Azərbaycanda qeyri-neft sektoru üzrə istehsalın və ya ixracın həcmindəki azalmadan deyil, neft sektoru üzrə kəskin artımdan qaynaqlanmışdır. Statistik məlumatların emalı nəticəsində aydın olur ki, 1995-ci ildə Azərbaycanın qeyri-neft ixracı 0,29 milyard USD olduğu halda, 2013-cü ildə bu göstərici 6,1 dəfə artaraq 1,77 milyard USD-yə yüksəlmişdir [7].

Eyni zamanda bu dövr ərzində qeyri-neft sektorunda yaradılmış ÜDM-in həcmində də artım qeydə alınmışdır. Təkcə 2002-ci illə müqayisədə 2013-cü ildə qeyri-neft sektorunda yaradılmış ÜDM məbləği 8,1 dəfə artaraq, 29,98 milyard manata təşkil etmişdir [7 və 14]

Bununla yanaşı, 1995-2013-cü illərdə Azərbaycandan ixrac olunan qeyri-neft məhsullarının sayında da ciddi artım qeydə alınmış,1995-ci ildə sayı təqribən 500 olan qeyri-neft ixrac məhsulları 2013-cü ildə 2500-ə çatmışdır. Başqa sözlə hesabat dövründə ixrac olunan qeyri-neft məhsullarının sayı və çeşidi 4 dəfəyədək artmışdır [15].

Aparılan təhlillər göstərir ki, Azərbaycan ixracının əmtəə strukturundan fərqli olaraq onun coğrafi şaxələnməsində müsbət irəliləyişlər gözə çarpmışdır. Müstəqilliyin ilk illəri ilə müqayisədə son dövrlərdə həm Azərbaycan mənşəli məhsulların ixrac edildiyi ölkələrin sayında ciddi artım müşahidə edilmişdir. Belə ki, 1995-ci ildə Azərbaycanın ixrac tərəfdaşlarının sayı cəmi 42 olduğu halda, 2013-cü ildə bu göstərici 105-ə yüksəlmişdir. Başqa sözlə ixrac Azərbaycanın ixrac sahəsindəki tərəfdaşlarının sayı qeyd olunan dövr ərzində 3,9 dəfə artmışdır [14 və 15].




**Şəkil 2. Azərbaycan ixracında MDB və digər ölkələrin payı, %**

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (www.stat.gov.az) məlumatları əsasında müəllif hesablamaları.*

Qeyd edək ki, yuxarıda aparılan analizlər Azərbaycanın ümumi, yəni xam neft və neft məhsulları da daxil olmaq şərti aparılmış və bu zaman ixracın coğrafi strukturunun şaxələndiyi ortaya çıxmışdır. Lakin təhlilləri bir qədər də dərinləşdirdikdə məlum olur ki, əslində Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının coğrafi strukturunda elə də ciddi bir dəyişiklik qeydə alınmamış, hələ də burada MDB ölkələrinin hökmran mövqeyi davam etməkdədir. 2013-cü il üzrə aparılmış hesablamalar göstərir ki, Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının 41,4%-i MDB ölkələrinin, o cümlədən 31,6%-i Rusiyanın payına düşmüşdür [7].

Onu da qeyd edək ki, son dövrlər "Qərb dövlətlrəi" ilə Rusiya arasında baş vermiş məlum siyasi hadisələrin iqtisadi-ticarət münasibətlərinə də mənfi təsirsiz ötüşməmiş, qarşılıqlı embarqolarla müşahidə edilmişdir. Qarşı tərəfə cavab olaraq Rusiya Federasiyası Nazirlər Kabinetinin 07.08.2014-cü il tarixli 778 nömrəli Qərarına əsasən ABŞ, Kanada, Aİ, Norveç və Avstraliya mənşəli aşağıdakı məhsulların idxalına 1 il müddətinə qadağa tətbiq edilmişdir [8 və 9]:

1. Ət və ət məhsulları;
2. Balıq və balıq məhsulları, molyuska və digər su məhsulları;
3. Süd və süd məhsulları;
4. Meyvə və tərəvəzlər;
5. Müxtəlif ərzaq məhsulları.

Məlumat üçün qeyd edək ki, yuxarıda adları sadalanan məhsullar üzrə Rusiyanın ABŞ, Kanada, Avstraliya, Aİ və Norveçdən illik idxalının həcmi ortalama **9 milyard USD** təşkil edir. Bu isə göründüyü kimi kifayət qədər böyük rəqəmdir və Rusiya tərəfi bu məhsulların sözügedən ölkələrdən idxala alternativ olaraq Azərbaycan, İran və Orta Asiya ölkələrində istehsal olunan analoji məhsulları görməkdədir. Bu xüsusda artıq ikitərəfli danışıqlar başlamış, 20 avqust tarixində Rusiya Federasiyasının Baş nazirinin müavini Dmitriy Roqozinin dəvəti ilə Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubovun başçılıq etdiyi nümayəndə heyəti Rusiyaya səfər etmişdir.

Təbii ki, baş verən bu hadisələr və cərəyan edən proseslər Azərbaycan ixracının coğrafi baxımdan şaxələnməsinə mənfi təsir etməklə yanaşı, qeyri-neft ixracının həcminin kəskin artmasına səbəb olacaqdır [8 və 9].

Bütün bunlara baxmayaraq, hesab edirik ki, ölkəmizdə həyata keçirilən iqtisadi inteqrasiya prosesləri və ixracın şaxələndirilməsi siyasətləri gələcək dövrlərdə Azərbaycanın əsas ixrac tərəfdaşları qismində Aİ ölkələri, xüsusilə də İtaliya, Böyük Britaniya və Almaniyanın, eləcə də ABŞ, Rusiya, Türkiyə və İran kimi ölkələr çıxış edəcəklər. Bu xüsusda biz həmin ölkələrin neft və qaz yataqlarının istismarında, Heydər Əliyev adına Bakı-Tibilsi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, Bakı-Tbilisi-Qars dəmiryolu, Trans Anadolu Qaz Boru Xətti (TANAP), Transadriatik kəməri (TAP) və Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi (TRASECA) layihələri və s. kimi geoiqtisadi layihələrdə iştirakı yuxarıda qeyd olunan ölkələr (əsasən də Avropa İttifaqı ölkələri) ilə Azərbaycan arasında iqtisadi-ticari əlaqələrin təkmilləşdirilməsi, dərinləşdirilməsi və genişləndirilməsi üçün real zəmin olduğu qənaətindəyik [1, 2, 12, 17, 20 və 21].

Digər tərəfdən Aİ ilə Azərbaycan arasında ticarət əlaqələrinin liberallaşdırılması, ticarətin artmasına maneə olan baryerlərin (tarif və qeyri-tarif) qarşılıqlı şəkildə azaldılması, həmçinin texniki dəstək və s. kimi vacib nüansları özündə əks etdirən "Assosiasiya Sazişi" üzrə danışıqlar davam etdirilir. Fikrimizcə, bu saziş imzalanaraq qüvvəyə mindikdən sonra Azərbaycan mənşəli mallar daha asan şəkildə Birlik ölkələrinin bazarlarına çıxmaq şansı qazanacaq ki, bu da Azərbaycan ixracının artması və şaxələnməasinə imkan yaradacaqdır.

## 4. Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında iqtisadi əlaqələr

Aİ ilə Azərbaycan arasındakı əlaqələrin başlanğıc tarixi 1990-cı illərin əvvəllərinə, Azərbaycan müstəqillik qazandıqdan sonrakı dövrə təsadüf edir. Təkcə onu qeyd etməyimi kifayətdir ki, Aİ 1995-2013-ci illərdə Azərbaycana 500 mln. avrodan çox humanitar, texniki və ərzaq yardımı göstərilmişdir. Azərbaycanda tam səlahiyyətli nümayəndəliyin açılması ilə Avropa İttifaqı Komissiyası Azərbaycanı təşkilata daha da yaxınlaşdırmaq üçün götürülən öhdəliklərin yerinə yetirilməsi istiqamətində ciddi səylər göstərməkdədir [17].

Azərbaycan Respublikası ilə Aİ arasında münasibətlərin hüquqi əsasını Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi qoymuşdur. Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi Azərbaycanla Aİ və onun üzv dövlətləri arasında ticarət, investisiya, iqtisadi qanunvericilik və mədəni əməkdaşlıq, eyni zamanda immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahələrində münasibətləri əhatə edən ümumi sazişdir. Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi 1996-cı ilin aprel ayında imzalanmış və 1999-cu il 1 iyul tarixində bütün tərəflərin parlament orqanlarında ratifikasiya olunduqdan sonra qüvvəyə minmişdir. Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin məqsədi Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası və ölkədə fəaliyyət göstərən xarici və daxili iqtisadi operatorlar vasitəsilə açıq, bazar iqtisadiyyatın yaradılmasını təmin etməkdir. Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə əsasən Azərbaycanla Avropa İttifaqı arasında üç əsas qurum yaradılmışdır. Bura Əməkdaşlıq Şurası, Əməkdaşlıq Komitəsi və Parlament Əməkdaşlıq Komitəsi daxildir [4].

2007-ci ildə Azərbaycanda Aİ-nin yeni Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) tətbiq olunur. AQTA ölkəmiz üçün aşağıdakı imkanlar yaratmışdır:

- siyasi, iqtisadi və inzibati islahatların həyata keçirilməsi və birgə dəyərlərə hörmət edilməsində konkret irəliləyişə nail olunması müqabilində Aİ-nın daxili bazarında müəyyən paya sahib olma imkanı;
- vətəndaşların, əmtəələrin, xidmətlərin və kapitalın sərbəst dövriyyəsini təmin etmək məqsədilə gələcək inteqrasiya və liberalizasiya proseslərində iştirak;
- Aİ üzv ölkələri ilə daha səmərəli siyasi dialoq və əməkdaşlıq, güzəştli ticarət əlaqələri və açıq bazar, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində

əməkdaşlıq, sərmayələrin təşviqi, yeni maliyyə mənbələrinin əldə edilməsi, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzv olmasının dəstəklənməsi və s.

Həmçinin, AQTA tərəfdaş ölkələr, o cümlədən Azərbaycan Respublikası üçün mədəniyyət, təhsil və ətraf mühit sahələri üzrə əlaqələri təşviq edən müəyyən Aİ proqramlarında intensiv iştirak və texniki yardım imkanları təqdim etmişdir. Bu kontekstdə Tvinninq, Texniki yardım və Məlumat mübadiləsi (*TAİEX),* Büdcəyə dəstək, "Tempus", "Erasmus Mundus" kimi proqramlar qeyd oluna bilər [4 və 10].

Digər əməkdaşlıq çərçivəsi 2009-cu il 7 may tarixində Praqa şəhərində birgə bəyannamənin imzalanması ilə qəbul edilmiş Şərq Tərəfdaşlığı (*ŞT*) təşəbbüsüdür. Bu, Aİ və Azərbaycan da daxil olmaqla, altı tərəfdaş ölkə ilə münasibətlərin gücləndirilməsi üçün yeni təşəbbüsdür. Şərq Tərəfdaşlığında məqsəd həmin ölkələri Avropa İttifaqına daha da yaxınlaşdırmaq, sabitlik, qabaqcıl idarəetmə və iqtisadi inkişafı təşviq etməkdir. Bu təşəbbüs demokratiya, qanunun aliliyi, insan hüquqlarına və əsas azadlıqlara hörmət, bazar iqtisadiyyatı və davamlı inkişaf kimi ümumi dəyərlərə əsaslanır. Tərəfdaşlıq iştirakçı ölkələrin Aİ iqtisadiyyatına tədrici inteqrasiyasını təşviq edəcək, dərin və hərtərəfli azad ticarət məkanının formalaşdırılmasına şərait yaradacaqdır. Digər məqsəd Aİ-nin şərq tərəfdaşları üçün uzun müddətdə viza rejiminin tam liberallaşdırılması ilə Birliyə səfərlərin yüngülləşdirilməsidir [4, 10 və 12].

Azərbaycan Respublikası ilə Aİ arasında əməkdaşlığın əsas istiqamətlərindən birini enerji dialoqu təşkil edir. Bu çərçivədə 7 noyabr 2006-cı il tarixində Azərbaycan Respublikası Prezidentinin Brüsselə səfəri zamanı imzalanmış "Aİ ilə Azərbaycan Respublikası arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" AR və Aİ arasında enerji dialoqunun genişləndirilməsi istiqamətində yeni imkanlar yaratmışdır. Bu Memorandumun əsas məqsədləri Aİ-nin enerji təchizatının şaxələnməsi və təhlükəsizliyi, həmçinin Azərbaycanın enerji infrastrukturunun inkişafı və müasirləşdirilməsi, enerjidən səmərəli istifadə, enerjiyə qənaət və bərpa olunan enerji mənbələrinin istifadəsidir [4].

Nəqliyyat və enerji sahəsində atılan digər mühüm addımlardan biri də TRACECA layihəsi üzrə fəaliyyət proqramının təsis olunmasıdır. «Yeni İpək Yolu» adlandırılan TRACECA proqramı Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrini inkişaf etdirən və Aİ-nin maliyyə dəstəyi ilə reallaşdırılan proqramdır. TRACECA 3 may 1993-cü il tarixində Brüsseldə keçirilmiş 8 təsisçi dövlətin (*5 Mərkəzi Asiya və 3 Cənubi Qafqaz ölkələri)* ticarət və nəqliyyat nazirlərinin Konfransında təsis olunmuşdur. Proqramın məqsədi iştirakçı dövlətlərin siyasi və iqtisadi müstəqilliyini dəstəkləməklə onların alternativ nəqliyyat yolları vasitəsilə Avropa və dünya bazarlarına çıxış qabiliyyətini yüksəltmək, Avropadan Qara Dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya və əks istiqamətdə ən tez və ən ucuz nəqliyyat dəhlizinin yaradılmasından ibarətdir [2, 4 və 12].

Araşdırmalar göstərir ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra dərhal beynəlxalq hüququn tam səlahiyyətli bir üzvü olaraq Avropa İttifaqı ölkələri ilə səmərəli əməkdaşlıq qurmuşdur. Avropa İttifaqı strateji tərəfdaşı olan Azərbaycanda iqtisadi islahatların sürətləndirilməsi və institutsional infrastrukturun formalaşdırılması məqsədilə hərtərəfli, istər maliyyə, istərsə də texniki dəstək göstərmişdir. Eyni zamanda iqtisadi əlaqələrin hüquqi bazası formalaşdırılmış, çərçivə sənədləri qəbul edilərək müvəffəqiyyətlə icra edilmiş və hazırda da icra edilməkdədir.

Bununla yanaşı hazırda müzakirəsi davam etdirilən "Assosiasiya Sazişi" Aİ ilə Azərbaycan arasında "Dərin və hərtərəfli azad ticarət zonası"nın yaradılmasını nəzərdə tutur ki, bu da qarşılıqlı ticarət əlaqələrinin tənzimlənməsi, idxal-ixrac prosedurlarının sadələşdirilməsi, həmçinin mövcud tarif və qeyri-tarif baryerlərinin aradan qaldırılması mövcud ticarət həcminin və çeşidinin artmasına imkan verəcəkdir.

## 4.Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında ticarət əlaqələri

Ölkəmizin Aİ ilə əlaqələri təkcə siyasi, mədəni, enerji sahəsində deyil, eyni zamanda qarşılıqlı ticarət sferasında da sürətlə inkişaf etməkdədir. 2001-ci ildən etibarən Aİ Azərbaycanın əsas ticarət tərəfdaşına çevrilmişdir.

***Cədvəl 4.***

**Azərbaycanın ümumi və Avropa İttifaqı ölkələrinə ixracı, milyard USD**

| Göstərici | 1995 | 1997 | 1999 | 2001 | 2003 | 2005 | 2007 | 2009 | 2011 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi ixrac | 0,6 | 0,8 | 0,9 | 2,3 | 2,6 | 4,3 | 6,1 | 14,7 | 26,6 | 24,0 |
| ***o cümlədən Aİ-yə ixrac*** | ***0,1*** | ***0,1*** | ***0,5*** | ***1,7*** | ***1,9*** | ***2,3*** | ***1,8*** | ***6,7*** | ***16,2*** | ***11,6*** |
| Aİ-nin ümumi ixracda payı, % | 15,1 | 18,9 | 52,6 | 73,5 | 73,6 | 52,7 | 29,0 | 45,2 | 60,8 | 48,4 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (www.stat.gov.az) məlumatlarına əsasən müəllif hesablamaları.

Cədvəldən də göründüyü kimi Azərbaycanın ümumi ixracında Aİ-nin payı ən çox 2001-2003-cü illərdə qeydə alınmış, ən az isə 2007-ci ildə müşahidə edilmişdir. Belə ki, 2001-2003-cü illərdə bu göstərici təqribən 74% olduğu halda, 2007-ci ildə isə 19%-ə enmişdir. Ümumiyyətlə isə qeyd edə bilərik ki, son 12 ildə (2007-ci il istisna olmaqla) bütün illərdə Aİ-yə ixrac ümumi ixracın təqribən yarısına bərabər və ya yüksək olmuşdur. Bu isə bir daha sübut edir ki, son illərdə Azərbaycan ixracının coğrafi şaxələnməsində müsbət meyllər müşahidə edilməkdədir.

Bununla yanaşı, ümumilikdə Avropa İttifaqı ölkələrinə həyata keçirilmiş ixrac əməliyyatlarının təqribən yarısının İtaliyanın payına düşməsi Avropa İttifaqına ixracımızın İttifaq daxili ölkələr arasında qeyri-bərabər paylanmasını göstərir. Bunun əsas səbəbi isə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən imzalanmış "Əsrin Müqaviləsi"ndə Azərbaycandan ixrac edilən neft və neft məhsullarının son təyinat limanı olaraq İtaliyanın təsbit edilməsidir. Yəni, bu müqavilə çərçivəsində ixrac edilən xam neft və neft məhsullarının gömrük orqanlarına təqdim edilən bəyanməsində son təyinat nöqtəsi olaraq İtaliya göstərilir.

Eyni zamanda 2013-cü ildə Azərbaycanda Avropa İttifaqı ölkələrinə ixracın 98 %-i aşağıdakı diaqramda adıçəkilən 9 ölkənin **(***İtaliya, Almaniya, Fransa, Yunanıstan, Portuqaliya, Birləşmiş Krallıq, Avstriya, Xorvatiya və Çex Respublikası***)** payına düşmüşdür [7, 14 və 15].

Bütün bunlar isə göstərir ki, Azərbaycanın ümumi ixracı coğrafi baxımdan kifayət qədər şaxələnsə də, Avropa İttifaqı daxilində ixrac şaxələnməsi qənaətbəxş səviyyədə olmamışdır. Başqa sözlə, Avropa İttifaqına ixrac əməliyyatlarının cəmi 2%-i İttifaqın üzvü olan digər 19 ölkəyə aparılmışdır.

Qeyd edək ki, Azərbaycan ixracının şaxələndirilməsi məsələsi təkcə Azərbaycan tərəfinin deyil həm də qarşı tərəfin daim diqqət mərkəzində olmuşdur. Belə ki, Aİ Azərbaycanda daxil olmaq şərti ilə bir çox ölkəyə münasibətdə idxal zamanı kifayət qədər vacib güzəştlər nəzərdə tutan GSP (Generalized System Of Preference) proqramını həyata keçirməkdədir. Bəs GSP nədir? – GSP müəyyən qrup mallar üçün idxal gömrük tariflərinin tutulmaması və ya güzəştli tutulmasını nəzərdə tutan bir sistemdir. Avropa Birliyi digər ölkələrdə olan GSP sistemindən əlavə GSP+ sisteminə də malikdir. GSP sistemində ümumi və xüsusi tədbirlər nəzərdə tutulur [5 və 16]:




**Şəkil 3. Azərbaycanın Aİ daxilində əsas ixrac tərəfdaşı olan ölkələr (*2013*)**
***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (www.stat.gov.az) məlumatlarına əsasən müəllif hesablamaları.*

✓ Ümumi tədbirlər. Ümumi ticarət güzəştləri əsasında bütün inkişaf etməkdə olan ölkələrə tətbiq edilir və Ən Əlverişli Rejim (MFN - Most Favored Nation) tarifinin bütün ölkələr ucun azaldılmasını nəzərdə tutur. Ümumi tədbirlər çərçivəsində həssas məhsullara 3.5 % (spesifik rüsumlar olduqda isə 30%), qeyri həssas məhsullar ucun isə 100 % güzəşt nəzərdə tutulur.

✓ Xüsusi stimul tədbirləri. İnsan hüquqlarına, əmək hüquqlarına, ətraf mühitin mühafizəsinə, keyfiyyətli idarəetməyə dair BMT-nin 27 əsas Konvensiyasına qoşulmuş və bu Konvensiyaların müddəalarını tam təmin edən qanunvericilik bazası mövcud olan ölkələrə və zəif inkişaf etmiş ölkələrə daha yüksək güzəştlərin verilməsini nəzərdə tutur.

Avropa Şurasının 10 dekabr 2001-ci ildə qəbul edilmiş (№2501/2001) qərarına əsasən, balıq və polad məhsulları istisna olmaqla Azərbaycandan ixrac olunan digər mallara güzəştlər tətbiq edilirdi. Bu qərarda Azərbaycana xüsusi stimul tədbirlərinin tətbiqi nəzərdə tutulmamışdı. Şuranın ən son 2005-ci il 27 iyun tarixli qərarı (№980/2005) ilə Azərbaycana yuxarıda qeyd olunan mallar üzrə tətbiq olunan məhdudiyyətlər aradan qaldırılmışdır. Lakin, Azərbaycana yenə də xüsusi stimul tədbirlərinin tətbiqi nəzərdə tutulmamışdı. 2009-cu ilin yanvar ayının 1-dən etibarən isə Azərbaycan Avropa Birliyinin təqdim etdiyi güzəştli ticarət sisteminin ən üst pilləsi olan "GSP+" proqramına benefisiar ölkə statusu ilə daxil edilmişdir. "GSP+" proqramı benefisiar ölkəyə digər stimul tədbirlərindən daha geniş imtiyazlar verir. Nəticə olaraq Azərbaycan həm həssas, həm də qeyri-həssas minlərcə mal qrupları üzrə öz məhsullarını Avropa Birliyi bazarlarına rüsumsuz ixrac imkanını əldə etmişdir [5 və 10].

Lakin, fikrimizcə, hər iki tərəfin qarşılıqlı şəkildə Azərbaycan ixracının şaxələnməsi və qeyri-neft ixracının artırılması istiqamətindəki cəhdləri və həyata keçirdikləri tədbirlər, eləcə də qüvvəyə minmiş bir sıra qanunvericilik aktları və idxal-ixrac prosedurlarının sadələşdirilməsi, həmçinin də Aİ tərəfindən birtərəfli şəkildə Azərbaycan ixracatçılarına təqdim edilmiş güzəştlərə (GSP və GSP+ proqramları) baxmayaraq son illərdə Azərbaycanın Avropa İttifaqı ölkələrinə ixracında qeyri-neft sektorunun payı çox cüzi olmuşdur. Belə ki, 2013-cü il üzrə Azərbaycanın Aİ-yə ixracının mal tərkibinin təhlili göstərir ki, ixracın əsas hissəsinə xam neft

(97%) və neft məhsulları (2%) sahib olmuşdur. Yəni qeyd olunan ildə Azərbaycanın Aİ-yə ixracının cəmi 1%-i qeyri-neft sektorunun payına düşür [7, 14 və 15].




**Şəkil 4. Azərbaycanın Aİ-yə ixracının əmtəə strukturu, % (*2013*)**

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (www.stat.gov.az) məlumatlarına əsasən müəllif hesablamaları.*

Eyni zamanda təhlil zamanı müəyyən olur ki, Azərbaycanın Aİ-nin həm neft sektoru üzrə həm də qeyri-neft sektoru üzrə ixracında Azərbaycanın payı o qədər də qənaətbəxş olmamış, 1% həddinin altında qalmışdır [11, 14 və 15].




**Şəkil 5. Aİ idxalında Azərbaycanın payı, % (*2001-2012*)**

***Mənbə:*** *Beynəlxalq Ticarət Mərkəzinin (İTC) (www.intracen.org) Beynəlxalq Biznesin İnkişafı üçün Ticarət Statistikası (www.trademap.org) məlumatlarına əsasən müəllif hesablamaları.*

Yuxarıda aparılmış təhlillər göstərir ki, müstəqillik illərində Azərbaycanın Avropa İttifaqı ölkələrinə ixracının şaxələnməsi qənaətbəxş səviyyədə olmamış və bu sahədə bir sıra problemlər hələ də qalmaqdadır. Bu problemləri aşağıdakı kimi qruplaşdıra bilərik:

1. İxracının 99%-ni neft və neft məhsulları təşkil edir;
2. İxracın İttifaq ölkələri arasında bölgüsü qeyri-bərabərdir. Belə ki, 9 ölkənin Azərbaycanın Aİ-yə ixracında payı 98%, 19 ölkənin payı isə 2% olmuşdur;
3. Avropa İttifaqının Azərbaycana münasibətdə tətbiq etdiyi GSP və GSP+ proqramlarından istifadə səviyyəsi çox aşağı olmuşdur. Belə ki, 2013-cü ildə Aİ-yə ixracın GSP+ proqramı çərçivəsində güzəştli şərtlərlə ixrac edilməsi mümkün olan malların yalnız 17,8%-i bu imkandan yararlanmışdır.

## 6. Nəticə

Tədqiqat zamanı aparılan təhlillər aşağıdakı nəticələrin çıxarılmasına şərait yaratmışdır:

A) Azərbaycanda ixracın şaxələnməsini və qeyri-neft sektoru üzrə ixracın artırılması niyyətində olan və müvafiq siyasət tədbirləri işləyərək həyata keçirən Dövlət var;

B) Bununla yanaşı, müəyyən olunur ki, Azərbaycanda aparılan şaxələnmə siyasəti əsasən elmi əsaslara deyil, istehsal ənənələrinə söykənir. Belə ki, müasir elmi ədəbiyyatlara əsasən qeyri-neft sektorunda məhz hansı sahələrin neft-qaz sektoruna alternativ kimi inkişaf etdirilməsinin müəyyənləşdirilməsi 4 əsas seçim meyarı əsasında aparılmalıdır;

C) Azərbaycanın xarici ticarət, xüsusilə də ixracın şaxələnməsinə xidmət edən siyasət tədbirləri təkmil deyil, gömrük-sərhəd prosedurları qəliz və sərf edilən vaxt və vəsait kifayət qədər çoxdur. Bu sahədə vəziyyətin qənaətbəxş olmaması beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda da öz əksini tapmışdır. **“Doing Business 2014”** hesabatının **“beynəlxalq ticarət”** hissəsi üzrə Azərbaycan 168-ci, **“İqtisadi Azadlıq İndeksi-2014”** hesabatının **“beynəlxalq ticarət”** azadlığı hissəsində 86-cı yeri tutmuşdur;

D) Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının ümumi ixracdakı payı 1995-ci ildən başlayaraq azalmışdır. Belə ki, 1995-ci ildə bu göstərici 45,6%, 2013-cü ildə isə 7,4% təşki letmişdir;

E) Bununla yanaşı Azərbaycandan ixrac olunan malların sayı 1995-2013-cü illərdə 4 dəfə artaraq 2500-ə, qeyri-neft ixracın məbləği isə 6,1 dəfə artaraq 1,8 milyard USD-yə çatmışdır;

F) Azərbaycanın ümumi ixracı, xam neft və neft məhsulları amili hesabına coğrafi baxımdan 1995-2013-cü illərdə şaxələnmiş, qeyri-neft ixracında isə coğrafi şaxələnmə qənaətbəş olmamışdır. Belə ki, 2013-cü il üzrə qeyri-neft ixracında MDB ölkələrin payı 41,4%, o cümlədən Rusiyanın payı 31,6% olmuşdur;

G) Digər tərəfdə Rusiyanın ABŞ, Kanada, Aİ, Norveç və Avstraliyaya nisbətdə bəzi ərzaq məhsulları üzrə 1 illik embarqo tətbiq etməsinin Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının coğrafi şaxələnməsinə mənfi təsir edəcəyi müəyyən olunmuşdur;

H) Azərbaycanın Aİ-yə ixracının əmtəə strukturunu xam neft və neft məhsulları təşkil etmiş, onun 99%-i neft və neft məhsulları hesabına formalaşmışdır;

I) Azərbaycanın Aİ-yə ixracı İttifaq ölkələri arasında qeyri-bərabər paylanmışdır. Belə ki, 9 ölkənin Azərbaycanın Aİ-yə ixracında payı 98%, 19 ölkənin payı isə 2% olmuşdur;

J) Avropa İttifaqının Azərbaycana münasibətdə tətbiq etdiyi GSP və GSP+ proqramlarından istifadə səviyyəsi çox aşağı olmuşdur. Belə ki, 2013-cü ildə Aİ-yə ixracın GSP+ proqramı çərçivəsində güzəştli şərtlərlə ixrac edilməsi mümkün olan malların yalnız 17,8%-i bu imkandan yararlanmışdır.

***Ədəbiyyat siyahısı***

1. Hacızadə E.M. (2006). Sosiallaşan iqtisadiyyat. Kitabı
2. Hacızadə E.M. (2014).“Regional nəqliyyat infrastrukturunun təkmilləşdirilməsində Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsinin rolu” məqalə, Azərbaycan Vergi Jurnalı, 3(117)/2014, səh. 123-160.
3. İmamverdiyeva S.Ş. (2014). “İxracın diversifikasiyası sahəsində “İdxal-İxrac Bank”larının rolu” məqalə, Azərbaycan Vergi Jurnalı, 3(117)/2014, səh. 177-190.
4. “Azərbaycan beynəlxalq arenada” Azərbaycan Respublikası Prezident Kitabxanası (http://files.preslib.az/projects/republic/az/azr2_4.pdf)
5. “İxracatçılar üçün təlimat kitabı” (2013). Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu.
6. Kənan Aslanlı, Zöhrab İsmayılov, Rövşən Ağayev, Azər Mehtiyev (2013) “İqtisadiyyatın və ixracın şaxələnməsinin qiymətləndirilməsi”, Azad İqtisadiyyata Yardım İctimai Birliyi.
7. “Azərbaycanın xarici ticarəti” və “Azərbaycanın xarici ticarət əlaqələri” statistik məcmuələr, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Bakı, 2013.
8. Rusiya Federasiyası Prezidentinin 06.08.2014-cü il tarixli, 560 nömrəli Fərmanı (bəzi məhsullara idxal qadağasının tətbiq edilməsi haqqında).
9. Rusiya Federasiyası Nazirlər Kabinetinin 07.08.2014-cü il tarixli 778 nömrəli qərarı (embarqo tətbiq ediləcək malların siyahısının təsdiq edilməsi haqqında)
10. www.economy.gov.az
11. www.trademap.org
12. www.president.az
13. www.cabmin.gov.az
14. www.stat.gov.az
15. www.customs.gov.az
16. www.azpromo.az
17. www.eeas.europa.eu/delegations/azerbaijan
18. www.doingbusiness.org
19. www.heritage.org/index
20. www.traceca.org
21. www.tanap.com

**Анализ современного состояния экспорта Азербайджана в Европейский Союз**

**Аннотация**

**Алиев Эльнур Вагиф оглы**

*Докторант Научно-исследовательского Института Экономических Реформ при Министерстве Экономики и Промышленности Азербайджанской Республики*

***Цель исследования*** - изучение состояния а также выявление возможностей расширения экспорта Азербайджанской Республики в страны Евросоюза.

***Результаты исследования*** - в результате исследований было выявлено, что по сравнению с первыми годами независимости, экспорт Азербайджана в страны Евросоюза стремительно вырос за последние годы. Если в 1995 году экспорт Азербайджана в Евросоюз составлял 0,1 млрд. Долларов США, то в 2013 году этот показатель достиг 11,6 млрд..

***Практическая значимость исследования*** - результаты исследования могут быть использованы специалистами, изучающими вопросы расширения экспорта Азербайджана в страны Евросоюза, в том числе научными сотрудниками научно-исследовательских организаций, студентами, магистрами, а также организациями ответственными за расширение экспорта Азербайджана в Евросоюз.

**Ключевые слова:** *Европейский Союз, расширение экспорта, TRACECA, TANAP, TAP, проект железной дороги Баку-Тбилиси-Карс и т.д.*

**The analysis of the current state of Azerbaijan's export to the European Union**

**Abstract**

**Aliyev Elnur Vagif oglu**

*Scientific Research on Economic Reforms of the Ministry of Economy and Industry of Azerbaijan Republic*

***Purpose*** of the research is examining the state of Azerbaijani exports to the EU and identifying the opportunities for diversifying exports from Azerbaijan to the EU.

***Findings*** – the research reveals that the export of Azerbaijan to the EU has increased rapidly in recent years compared to the early years of the independence. As, whereas the volume of exports to the EU was $ US 0.1 billion in 1995, in 2013 this indicator has rosen to $ US 11.6 billion.

***Practical implications*** – the conclusion of the research can be applied by professionals studying diversification of Azerbaijani exports to the EU as well as researches, students, also organizations responsible for this area.

**Keywords:** *European Union, export diversification, TRACECA, TANAP, TAP and BAKU-Tbilisi-Kars railway projects.*